# Müharibə və mədəniyyət



## ÖLƏRİLİKDƏ ÖLMƏZLİK

Müharibə və mədəniyyət. Bu iki kəlmənin yanaşı çəkilməsi ilk baxışda nə qədər təzadlı kimi görünsə də əslində bunlar o qədər də yad istilahlar deyil.

İstənilən silahlı münaqişə, xüsusən də müharibə mədəni mühitə ölçüyəgəlməz zərər vurur. Axı savaş gedişində fiziki abidələr, muzeylər, kitabxanalar, teatrlar, elmi mərkəzlər kimi görünən maddi-mədəni dəyərlərdən başqa gələcəyin bir çox məşhur əsərlərinin müəllifləri ola biləcək insanlar da istedadları çiçəklənmədən həlak olurlar. Çinli filosof Mo-Tszı hesab edirdi ki, "savaşlar sosial şər doğurur, zira insan cəmiyyətində ən dəyərli olan nə varsa, məhv edir".

Burası da var ki, hələ qədimlərdən döyüş şeypurlarının, təbillərin, ozan qopuzunun sədaları altında qan-qada meydanına çevrilən savaşların bitməsi ilə insanların qurub-yaratmaq, müxtəlif təsərrüfat və sənət sahələri üzrə yüksək inkişafa nail olmaq həvəsi və enerjisi sanki birə beş artır.  Savaş mövzusu uzun müddət bir çox incəsənət və ədəbiyyat əsərlərinin başlıca mövzusu olur, savaş meydanlarında fərqlənmiş insanlar, xüsusən də həlak olmuş döyüşçülər rəssamlıq, heykəltəraşlıq, musiqi, ədəbiyyat əsərlərinin qəhrəmanına çevrilərək sənətdə yaşamaqda davam edirlər. Rəssamlıq, musiqi, ədəbi və s. əsərlər savaş və barış məsələlərinin hərtərəfli şəkildə nəzərdən keçirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Beləliklə də bədii mədəniyyət insanlarda yüksək mənəvi keyfiyyətlərin tərbiyə edilməsinə böyük təsir göstərmiş olur.

Son iki əsr rus və dünya ədəbiyyatının fikir və əməl babalarından olan qraf Lev Nikolay oğlu Tolstoy özünün 1805-1812-ci illər rus-fransız savaşına həsr olunmuş "Hərb və sülh" romanını yazdı. Ta ibtidadan musiqi ilə bahəm bütün müharibələrin yol yoldaşı olan ədəbiyyatı özünün fikir və düşüncələrinin, fəlsəfi qənaətlərinin



***MAYASINDA ƏDALƏT DAYANAN, ÖZ GEDİŞİ VƏ NƏTİCƏLƏRİ İLƏ BÜTÜN TARİXİ VƏ ÇAĞDAŞ "DAŞLARI YERİNƏ QOYAN" VƏTƏN MÜHARİBƏLƏRİ XALQIN VƏ MİLLƏTİN GƏLƏCƏK İNKİŞAFINA, ONUN ÖZÜNƏ QAYIDARAQ İNAMLA SABAHA ADDIMLAMASINA VƏSİLƏ OLUR, ÖZÜNƏMƏXSUS TƏKAN ROLUNU OYNAYIR***

ifadəsi və nəhayət, tarixi faktların yozumu üçün istinadgaha çevirən adib çağımızda da böyük maraqla mütaliə edilən fundamental ədəbi şedevr yaratmağı bacarmış və bununla da sanki müharibələrin "ədəbiyyatın anası" olduğunu isbata yetirə bilmişdi.

Müharibə - qəribə bir lirizm mənbəyi, epik poema və folklor nümunələrinin, ruhgətirici, şövqləndirici, qanqaynadan musiqinin ərsəyəgətiricisidir. Bir zamanlar baş vermiş qanlı döyüşlər çox-çox sonralar effektiv batal tablolara çevrilərək, deyək ki, Şəki Xan sarayının al-əlvan divarlarından bizə boylanır və... zövqümüzü oxşayır! Döyüş ruhunu yüksəldən məşhur "Cəngi" döyüşçünü nə qədər ruh-

***MÜHARİBƏ CƏBHƏLƏRİNDƏ PARLAQ İSTEDADI OLAN GƏNCLƏRİN SAYI ÇOXDUR. ONLARI HƏLƏ BUNDAN SONRA YAXINDAN TANIYACAĞIQ. AMMA JURNALIMIZIN BU SAYINDA HƏLƏLİK VƏTƏN MÜHARİBƏSİ CƏBHƏLƏRİNDƏ HƏLAK OLMUŞ DÖYÜŞÇÜ MƏDƏNİYYƏT İNSANLARIMIZ, SƏNƏT XADİMLƏRİMİZİN AİLƏ ÜZVLƏRİ, SAVAŞ YOLU GƏNCLƏRİMİZƏ ÖRNƏK OLAN VƏ QƏFİL ÖLÜMÜ İLƏ ÇOXUMUZU QƏMLƏRƏ BOĞAN BİR NEÇƏ ŞƏHİD SOYDAŞIMIZDAN SÖZ AÇIRIQ***



landırırsa, düşməni də bir o qədər qorxudur. Heç təsadüfi deyil ki, rus istilasına qarşı toplam 120 il inadlı mübarizə aparmış Şəkinin Göynük kəndində və ətraf obalarda qara zurnanın ifa edilməsi çar məmurları tərəfindən qəti qadağan edilmişdi...

Müharibə ilə bağlı yayılmış fikirlərdən biri uzun müddət savaşların olmamasının insanlarda, xüsusən də gənclərdə aqressiv enerjinin toplanıb qalması, buradan irəli gələn mənəvi dəyərlərin itirilməsidir. Bunu əsas götürərək zaman-zaman hətta müharibələri təqdir edən çağırışlar da səsləndirilib. Ancaq burası da var ki, mayasında ədalət dayanan, öz gedişi və nəticələri ilə bütün tarixi və çağdaş “daşları yerinə qoyan” vətən müharibələri nə qədər cavan canlar alsa da xalqın və millətin gələcək inkişafına, onun özünə qayıdaraq inamla sabaha addımlamasına vəsilə olur, özünəməxsus təkan rolunu oynayır. Lakin müharibələrin fərd və toplumlar miqyasında bizim bildiyimiz və hələ bilmədiyimiz hansısa “faydaları” varsa belə, “tökülən qan izini” tam zamanında kəsmək onun müəllifini əslində dünyanı (xalqı, qövmü) “qurtaran dahiyə” çevirir. Bu mənada Azərbaycan xalqının böyük qabiliyyət və qalibiyyətlə apardığı, az qala qırx dörd il hazırlaşdığı 44 günlük savaşı klassik Vətən müharibəsinin çox parlaq çağdaş örnəyini yaratdı. Bir neçə onillik ərzində acı məğlubiyyətin gətirdiyi milli natamamlıq kompleksinin buxovlarında yaşasa da sınmayan, bütün sahələrdə, xüsusən də mədəniyyət cəbhələrində istedadlı əsərlər yaradan və sənətkarlar yetişdirən sayca kiçik, lakin tarixi keçmişi və xalqın öz enerjisini necə səfərbər eləməsi, sanki sehrli çubuğun hərəkəti ilə bütün ədalətli dünyanı heyrətdə qoyan xalqımız “Dəmir yumruğ”a çevrilməsi, hərb meydanlarında inanılmaz şücaətlərə imza atması ilə hələ çox illər ərzində sosioloqların, müharibə ekspertlərinin tədqiqat obyekti olaraq qalacaqdır. Heç şübhəsiz ki, biz bu sətirləri qələmə alırkən 44 günlük savaşı və onun qəhrəmanlarını vəsf edəcək müxtəlif janrlı bir çox ədəbi və digər nümunələrin ilk sətirləri, notları yazılır, rəssamlıq və heykəltəraşlıq əsərlərinin ilkin konturları cızılır.

Yaxın və hətta nisbətən uzaq gələcəyin neçə-neçə parlaq incəsənət və ədəbiyyat əsərləri üçün ilham qaynağı olacaq Müqəddəs Vətən Müharibəmizi var edənlərin sırasında mədəniyyət cəbhəsinin çoxsaylı əsgərlərinin və onların yaxınlarının olması diqqəti cəlb edir. Sərt müharibə “peyzajları” arasında seçilən bu cür döyüşçülər savaş mənzərəsi ilə uyuşmayan hərəkətləri ilə ölkə insanını şövqləndirir, riqqətə gətirir, ruhlandırırdılar. Müharibə cəbhələrində onların sayı çoxdur. Onları hələ bundan sonra yaxından tanıyacayıq. Amma jurnalımızın bu sayında hələlik Vətən müharibəsi cəbhələrində həlak olmuş döyüşçü mədəniyyət insanlarımız, sənət xadimlərimizin ailə üzvləri, savaş yolu gənclərimizə örnək olan və qəfil ölümü ilə çoxumuzu qəmlərə boğan bir neçə şəhid soydaşımız haqqında söz açırıq.

## Son rolu - ölməzlik

Öz ölümü ilə Qələbəni yaxınlaşdıranlardan biri gənc aktyor **Samir Qəfərli** oldu. O, müharibədən uzaq bir sənətin sahibi idi. Mədəniyyət və İncəsənət universitetinin aktyorluq fakültəsini bitirmiş Samir qısa müddətdə rejissorların diqqətini cəlb etməyi bacarmış, teletamaşaçılar arasında populyar “Ata ocağı” serialında rol da almışdı. Müharibə başlananda bir an belə tərəddüd etmədən döyüşə yollanan Samir Qəfərli savaş teatrının cəsur fərdi kimi qəhrəmanlıqla vuruşdu, çox sevdiyi Vətəninin ərazi bütövlüyünün bərpası yolunda uca və müqəddəs şəhidlik zirvəsini fəth elədi.

## Qazi atanın şəhid oğlu

Azərbaycanın tanınmış mədəniyyət xadimlərinin ailə üzvləri arasında da şəhidlik məqamına yetmiş insanların olması Vətən müharibəsinin şanlı səhifələrindəndir. Tanınmış xanəndə, Xalq artisti, Milli Konservatoriyanın professoru **Mənsum İbrahimovun** qardaşı, Qarabağ qazisi **Zülfüqar İbrahimovun oğlu İsrafil** Laçın uğrunda gedən



Xalq artisti Mənsum İbrahimov



döyüşlərdə şəhid oldu. Şəhid döyüşçü 27 oktyabrda çox sevdiyi Ağdamda torpağa tapşırıldı.

Qardaşı oğlunun Xüsusi təyinatlı Qüvvələrdə xidmət etdiyini deyən Xalq artisti onun Qarabağın 4 rayonunun işğaldan azad olunmasında iştirak etdiyini bildirdi: "Onun dəfnində xalq izdihamı vardı. Bu xalqın iradəsini heç nə sarsıda bilməz. Belə xalqı olan dövlətin torpağı işğalda qalmaz. Təki Vətən sağ olsun, ***biz bir nəfər ölüb, min nəfər dirilərik"***.



## *Rövşən Nurzadə zirvəsi*

Vətən müharibəsində Respublikanın Xalq artisti, Akademik Milli Dram Teatrının aktyoru, intellektual və vətənpərvər ziyalı Əli Nurun 45 yaşlı oğlu, ehtiyatda olan baş leytenant **Rövşən Nurzadə** də ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə əbədiyyətə qovuşdu. Yoldaşlarının dediyinə görə igid baş leytenant son döyüşdə bir neçə əsgəri xilas edib, lakin özü çiynindən və ayağından aldığı yaralardan həlak olub.

Hələ Birinci Qarabağ müharibəsində, 9-cu sinifdə oxuyurkən Sumqayıtdan ta Ağdama qədər getmişdi ki, düşmənə qarşı aparılan döyüşlərə qatılsın. Amma buna nail ola bilməmişdi, yaşı az olduğu üçün onu geri qaytarmışdılar.

Vətən sevgisini öyrənmək olmur. Olursa da məhz Əli müəllim kimi vətənsevərlərin ailəsində olur. Eynən Rövşən Nurzadə kimi. Hərbi xatirələrin çox olduğu bir evdə böyümüş Rövşən özü də bu

***AZƏRBAYCAN XALQI BÖYÜK QABİLİYYƏT VƏ QALİBİYYƏTLƏ APARDIĞI 44 GÜNLÜK SAVAŞLA KLASSİK VƏTƏN MÜHARİBƏSİNİN ÇOX PARLAQ ÇAĞDAŞ ÖRNƏYİNİ YARATDI. ARTIQ İGİDLƏRİMİZİ VƏSF EDƏCƏK BƏDİİ VƏ MUSİQİ NÜMUNƏLƏRİNİN İLK SƏTİRLƏRİ, NOTLARI YAZILIR, RƏSSAMLIQ VƏ HEYKƏLTƏRAŞLIQ ƏSƏRLƏRİNİN İLKİN KONTURLARI CIZILIR***

sahəyə meyl salır. Onun qismətində bir vaxtlar döyüşə bilmədiyi Ağdamda taqım komandiri olmaq da varmış...

Müharibəyə yollananda onu atası və övladları – Türkiyədəki Ağ dəniz Universitetinin tələbəsi Vaqif və kiçik oğlu Kənan yola salıb. Rövşən bir aydan da az vaxtda Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa istiqamətində aparılan hərbi əməliyyatlarda iştirak edib. "Hər iki Qarabağ savaşında şəhid olmuş əsgərlərimiz bizim hamımızın övladıdır. Biz hamımız şəhid atasıyıq. Rövşən də tək mənim övladım deyil, xalqın oğludur. Bu şəhidlər olmasaydı biz itirilmiş Vətən torpaqlarını geri ala bilməzdik." Rövşən Nurzadənin atası, Xalq artisti Əli Nur belə deyib.



Xalq artisti Əli Nur

...Vətən müharibəsində 2783 əsgər və zabitimizin şəhadətə qovuşduğu elan edildi. Azərbaycanın hər bir tərəfindəki məzarlıqlarda uyuyaraq Vətənə sonsuz sədaqətin simgəsinə çevrilən şəhidlərimizin sayı nə acı ki, bu gün də artmaqdadır. Qonşuluğun nə olduğunu bilməyən tarix sərgərdanı ermənilər bu dəfə Hadrut meşələrində gizlənərək xaincəsinə hərbçilərimizə və hətta mobil rabitə şəbəkəsi quran rabitəçilərimizə də hücum edirlər. Sülh dilindən anlamayan müxənnət qonşuların təxribatları nəticəsində üçtərəfli 10 noyabr Bəyanatının imzalanmasından ötən müddət ərzində şəhidlərimizin sayı artaraq 2823 nəfərə çatıb. Amma məğlubiyyətlə barışmağı bacarmayan düşmən tör-töküntüsü Böyük Azərbaycan Zəfərinə əsla kölgə sala bilməyəcəkdir.

Uca Tanrı şəhidlərimizdən rəhmətini, yaralılarımızdan şəfaətini əskik eləməsin. Amin!

**Şövkət Səlimov**
jurnalist